Mayın 25-də ümumi təhsil müəssisələrinin IX və X sinif şagirdlərinin iştirak etdiyi “Qərbi Azərbaycana qayıdış” olimpiadasının ikinci mərhələsi təşkil olunub. Olimpiada ölkə üzrə 14 mərkəzdə keçirilib.

1001 şagird ikinci mərhələdə iştirak hüququ əldə edib.

Final mərhələsində isə ən yüksək nəticə göstərmiş 36 şagird öz bilik və bacarığını sınayacaq.

Qeyd edək ki, olimpiadanın təşkilində məqsəd şagirdlər arasında Qərbi Azərbaycanın tarixi, coğrafiyası, mədəniyyəti, ədəbiyyatı, görkəmli ictimai xadimləri, tarixi şəxsiyyətləri, toponimləri, folkloru haqqında maarifləndirmə işlərini aparmaq və biliklərin dərindən öyrənilməsini təmin etməkdir.